*Nailə Səmədova.Tariximiz böyük ədibin araşdırmalarında // Elmi əsərlər, 2019,№1(8),yanvar-iyun,s.8-11.*

UOT 821.512.162 + 94(479.24)

**Nailə Səmədova**
*filologiya üzrə elmlər doktoru,*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
*e-mail: nailesamadova@yahoo.com*

# TARİXİMİZ BÖYÜK ƏDİBİN ARAŞDIRMALARINDA

**Açar sözlər:** *Ordubadi, tarix, Təbriz, xalq, Midiya*

Ədəbiyyatımızda tarixi roman janrının əsasını qoymuş böyük yazıçı Məmməd Səid Ordubadi eyni zamanda Azərbaycan tarixi haqqında dəyərli araşdırmaların müəllifidir. Onun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan zəngin arxivindəki məqalələri bunu bir daha təsdiqləyir.

Ədibin 11 vərəqdən ibarət "Tariximizdən" (1) adlı məqaləsi ərəb əlifbası ilə qələmə alınmış avtoqraf nüsxədir. Ordubadi məqalə üzərində işləmiş, düzəlişlər etmişdir. Bəzi sözlər, birləşmələr pozulmuşdur, bəzi şəxs adları latın əlifbası ilə yazılmışdır. Onu da qeyd edək ki, arxivdə 7 vərəqdən ibarət "Tariximizdən" adlı başqa bir əlyazma da vardır. Lakin bu əlyazma, çox güman ki, əsərin qaralama variantıdır. Çünki üzərində daha çox düzəlişlər edilmişdir. Axırıncı vərəqin sonunda Ordubadi əsərin bitmədiyini qeyd etmişdir.

Nəzərə çatdırılmalıdır ki, Ordubadinin "Tariximizdən" adlı məqaləsi 1940-cı ildə "Ədəbiyyat qəzeti"ndə (2) dərc olunsa da şəxsi arxivdə saxlanılan, tam variantda olan avtoqraf nüsxədən fərqlidir. Məqalələrin başlıqları eyni olsa da cüzi təkrarları çıxmaqla avtoqraf nüsxə ilə dərc olunmuş nüsxənin hər biri tariximiz haqqında yazılan müxtəlif məqalələrdir. Lakin biz avtoqraf nüsxəni əsas götürmüşük.

Məqalədə Ordubadi midiyalıların İranın şimal-qərbində, bugünkü Cənubi və Şimali Azərbaycanda yaşamış bir xalq olduğu üçün iranlılarla Midiyanın qədim tarixi haqqında məlumat verir və onları qədimlik nöqteyi-nəzərindən müqayisə edir. Müəllif İran tarixi haqqında yazdığı məqalələrində qeyd etdiyi bir çox məlumatları "Tariximizdən" əsərində də təkrarlamağı lazım bilmişdir. Herodotun İran tarixi haqqında verdiyi məlumatda çox az həqiqət olduğu halda, Midiya tarixinə aid sənədlərdə Avropa tarixşünasları tərəfindən təsdiq edilmiş və əfsanəçilikdən təmizlənmiş bir çox tarixi məlumatların olduğunu bildirən Ordubadi midiyalıların "iranlılardan daha əvvəl bugünkü Azərbaycanda" yaşadığını "və böyük bir hökumət təşkilatına malik" (1,s.2) olduğunu nəzərə çatdırır.

Tarixi olayları incələyən müəllif bütün qeyd etdiyi vəsiqələrin midiyalıların iranlı olmadığını və iranlılardan daha qədim bir tarixə malik olduqlarını meydana çıxardığını göstərir. Ordubadi bir çox tarixi sənədlərə əsaslanaraq Midiya hökumətinin yaranması, inkişafı və süqutunu şərh edir. Bəzi tarix kitablarında Midiyanın "qurama

imperatorluq" və "iqtisadi özülü olmayan, bir fatehin uğurları sayəsində yaranan hərbi-inzibati birləşmə" (3,s.75) olduğu göstərilirsə də Ordubadi Midiyanın bir hökumət kimi tarixi mərhələləri haqqında məlumat verir.

"Xalqlar öz qədim tarixi üzərində işləməyə başlarkən, Azərbaycan xalqının da qədim tarixi yazılmalıdır. Hər bir azərbaycanlı elmi idarələrin tezliklə işə başlaması arzusunu daşıyır" - (1,s.12) fikirləri ilə məqaləsini bitirən Ordubadinin hər bir azərbaycanlı kimi istəyi dövrümüzdə gerçəkləşmiş və xalqımızın tarixi keçmişi müxtəlif aspektlərdən araşdırılmışdır.

M.S.Ordubadinin şəxsi arxivində Azərbaycan tarixi haqqında daha bir məqaləsi (4) vardır. Məqalə əvvəldən naqisdir, 10-cu vərəqdən başlayır. 13 vərəqdən ibarət olan əlyazma ərəb əlifbası ilə avtoqrafdır. Yazılma tarixi qeyd edilməsə də bəzi sözlərin kiril əlifbası ilə verilməsi məqalənin 40-cı illərdə qələmə alınmasını ehtimal etməyə əsas verir. Məqalədə Azərbaycanın tarixi qədim dövrlərdən başlayaraq XVIII yüzilin sonlarına qədər müxtəlif mənbələrə istinadən izlənilir, eyni zamanda müəllifin tarixi olaylara olan mövqeyi nəzərə çatdırılır.

Ordubadi "Azərbaycan tarixi haqqında" məqaləsində Təbriz şəhərinin tarixinə nəzər salır və məşhur yunan tarixçisi Strabonun Təbrizin Midiya paytaxtı olmasını isbat etdiyini bildirir. Müəllif eyni zamanda Təbrizin qədimliyi haqqında bundan daha inandırıcı vəsiqələrin olduğunu qeyd edir. "Şərq tarixçiləri Təbrizin binasını hicrətin ikinci əsrindən göstərmişdirsə, Avropanın tarix elmi mütəxəssisləri Təbrizin miladın altı yüz iyirmi üçüncü ilində mövcud olduğuna dair vəsiqələr" (4,s.1) göstərmişlər.

Ordubadi Təbrizin islamın zühurundan əvvəl mövcudluğuna dair bəzi sənədlərdə bu şəhərin ərəb orduları tərəfindən işğal edilməsi faktının olduğunu nəzərə çatdırır. Məqalədə Təbrizin elm və mədəniyyət mərkəzi kimi inkişafında Qızıl Arslanın rolu xüsusilə qeyd edilir və onun Şərqin bütün alimlərini, mütəfəkkirlərini, ədiblərini, şairlərini, filosoflarını Təbrizə topladığı göstərilir.

Yazıçının şəxsi arxivində ayrıca "Təbriz" (5) adlı məqalə də vardır. Məqalə ərəb əlifbası ilə yazılmış avtoqraf nüsxədir. Müəllif əsər üzərində müəyyən qədər işləmiş, cüzi əlavələr etmişdir. Ordubadi hər bir xalqın ölkəsinin tarixini bilməsinin önəmli olduğunu nəzərə çatdıraraq yazır: "Xalqların mədəni səviyyəsi artdıqca onlarda vətənpərvərlik ruhu da eyni dərəcədə yüksəlir. Onlar artıq öz ölkəsinin tarixi ilə maraqlanır, harada doğulduğunu və keçmişdə bu yerdə kimlərin yaşadığını öyrənmək istəyir və nəhayət özünün hansı bir qövmi davam etdirdiyini tədqiq etməyə başlayır. ... bir xalqın həyatında baş verən hadisələrin dəhşətliləri də həman xalqın tarixinin yaşaması üçün böyük bir amil olmuşdur." (5,s.1). Müstəmləkəçilərin əsas işi xalqların tarixini təhrif etmək, milli mədəniyyətin varlığını danmaq, siyasi inkişaf yollarını, milli həyatın mübarizə səhifələrini gizlətmək, varlığını şübhələr altında qoymaqdan ibarət olmuşdur. Buna görə də hər bir xalqa özünün tarixi varlığını olduğu kimi göstərmək ona gələcəkdə işğalçılara qarşı mübarizə aparmaqda ruh və qüvvət verəcəkdir. Bu mənada xalqların tarixinin öyrənilməsi önəmli və əhəmiyyət-lidir. Məmməd Səid Ordubadinin də müxtəlif sənədlər və vəsiqələr əsasında xal-

qımızın tarixinə aid yazdığı məqalələri tarixçi alimlər üçün bir qaynaq rolunu oynaya bilər.

Ordubadi "Təbriz: iqlimi, iqtisadi vəziyyəti, qədim asarı" adlı məqaləsində (5) Təbrizin tarixi haqqında daha ətraflı məlumat verir. 6 vərəqdən ibarət olan məqalə ərəb əlifbası ilə yazılmış avtoqrafdır. Məqalədə müəllif Həmdulla ibn Məstufinin "Nəzhətül-qülüb", Qazi Rükənəddinin "Məcməül-malik", Həməvinin "Müəccəmül-bəldan" əsərlərindən, eləcə də "Mərasəd", "Zinətül-məcalis", "Rövzətüs-səfa", "Həbibül-seyr" adlı kitablardan Təbrizin tarixi haqqında nümunələr gətirir.

Mənbələrə istinadən Ordubadi Təbrizin iqlimi, iqtisadi və siyasi vəziyyəti haqqında ətraflı məlumat verir. Müəllif Təbrizin tarixi haqqında ərəb tarixçisi İbn Cuğəldən, fransız səyyahı Şardendən verdiyi nümunələr əsasında bu şəhərin qədim tarixə malik olduğunu nəzərə çatdırır. Bunlarla yanaşı, Ordubadi bəzi əsərlərin gələcək tariximiz üçün bir məxəz kimi tanımağın mümkün olmadığını qeyd edir. Çünki bu əsərlər tarix elminin tələblərinə cavab vermir və onların tariximiz üçün əhəmiyyəti yoxdur.

M.S.Ordubadinin Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivindəki məqalələr ilə tanış olduqda ədibin Azərbaycan tarixi, xüsusilə Təbriz şəhəri haqqında dəyərli əsərlər qələmə aldığının bir daha şahidi oluruq. Təsadüfi deyil ki, akademik İsa Həbibbəyli bu nümunələrə əsaslanaraq qeyd etmişdir ki, "Azərbaycan tarixşünaslığında Təbriz şəhəri haqqında ən qiymətli əsərlər yazanların sırasında Məmməd Səid Ordubadi öndə gedə bilər." (6,s.86).

Məmməd Səid Ordubadinin Azərbaycan tarixi haqqında məqalələri və bu məqalələrdəki fikirlər çağdaş dövrün tarixçi alimlərinin fikirləri ilə üst-üstə düşməyə bilər. Böyük ədibin tariximiz haqqında söylədiklərinə və müxtəlif tarix kitablarından verdiyi nümunələrə olan münasibətinə tarixşünaslar daha dürüst, dolğun və ətraflı fikir bildirə bilərlər.

**Ədəbiyyat :**

1. Ordubadi M.S. Tariximizdən. AMEA ƏYİ, f.14, sax.vah.424.
2. Ordubadi M.S. Tariximizdən. Ədəbiyyat qəzeti, 1940-cı il, 23 mart, 22 aprel, 28 aprel.
3. Azərbaycan tarixi. Bakı, Çıraq, 2009.
4. Ordubadi M.S. Azərbaycan tarixi haqqında. AMEA ƏYİ, f.14, sax.vah.705.
5. Ordubadi M.S. Təbriz. AMEA ƏYİ, f.14, sax.vah.425.
6. Həbibbəyli İ. Böyük ədəbiyyat nəhəngi. Bakı, Elm və təhsil, 2012.

***Наиля Самедова***

**НАША ИСТОРИЯ В ИССЛЕДОВАНИЯХ ВЕЛИКОГО ПИСАТЕЛЯ**

**Резюме**

Выдающийся писатель Мамед Саид Ордубади, основавший жанр исторического романа в азербайджанской литературе, также является автором ценных исследований нашей истории. Его статьи, хранящиеся в архиве Института Рукописей имени Мухаммеда Физули Национальный Академии Наук Азербайджана подтверждают это.

Статьи Ордубади об истории Азербайджана, включая Тебриз, являются автографами. В этих статьях история Азербайджана излагается ссылаясь на различные источники,  начиная с древних времен до конца XVIII века, и учитывается позиция автора в отношении исторических событий.

Ордубади предоставляет подробную информацию об экономическом и политическом положении Тебриза, и на основе трудов восточных историков и французского путешественника подчеркивает, что этот город имеет древнюю историю.

**Ключевые слова:** *Ордубади, история, Тебриз, народ, Мидия.*

***Naila Samadova***

**OUR HISTORY IN THE GREAT LITTERATEUR’S RESEARCHES**

**Summary**

The outstanding writer Mammad Said Ordubadi, who founded the historical novel genre in Azerbaijani literature is also the author of valuable researches on our history. The articles kept in his rich archive in the Azerbaijan National Academy of Sciences - Institute of Manuscripts named after Muhammad  Fuzuli confirm it once more.

Ordubadi's articles on the history of Azerbaijan including articles about Tabriz are autograph articles. In these examples, the history of Azerbaijan is traced back starting from ancient times to the end of the 18th century based on various sources; furthermore, the author's position on historical events considered.

Ordubadi provides detailed information regarding the economic and political situation of Tabriz, and on the basis of the works of Eastern historians and Frenchtraveler, emphasizes the ancient history of the city.

**Key words:** *Ordubadi, history, Tabriz, people, Media.*

*Redaksiyaya daxil olma tarixi: 25.01.2019*
*Çapa qəbul olunma tarixi: 12.03.2019*

*Akademik T**eymur Kərimli** tərəfindən çapa tövsiyə olunmuşdur.*